# Əhməd Cəfəroğlunun 120 illiyinə həsr olunmuş elmi sessiya

2019-cu il dekabrın 20-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli dilçi və türkoloq alim Əhməd Cəfəroğlunun anadan olmasının 120 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib. Sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva Azərbaycan xalqının dilinə, ədəbiyyatına, tarixinə, etnoqrafiyasına dair çoxsaylı elmi əsərlərin müəllifi olan Əhməd Cəfəroğlunun Türkiyədə yazdığı bu əsərləri ilə Azərbaycanın tanıdılması, onun mədəniyyətinin təbliği sahəsində böyük rol oynadığını deyib. G.Baxşəliyeva Əhməd Cəfəroğlunun adını dünya türkologiya elminə böyük hərflərlə yazdığını qeyd edib.

AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova mühacirətdə yaşamasına baxmayaraq qəlbi həmişə



Azərbaycanla döyünən Əhməd Cəfəroğlunun Azərbaycanşünaslığa və türkologiyaya böyük töhfələr verdiyini söyləyərək, Şərqşünaslıq İnstitutunun keçirdiyi elmi sessiyanın əhəmiyyətini vurğulayıb.